


## YAP Səbail rayon təşkilatında ərazi ilk partiya təşkilat sədrlərinin toplantısı



Dünən YAP Səbail rayon təşkilatının qərargahında ərazi ilk partiya təşkilatları sədrlərinin geniş toplantısı keçirilib.

Toplantıda 9 fevral tarixində keçiriləcək növbədənkənar parlament seçkilərinə Səbail rayonunda aparılan hazırlıq işləri və 29 saylı Səbail seçki dairəsindən YAP-ın vahid namizədi Aytən Hüseynovanın təbliğat-təşviqat kampaniyası haqqında məlumat verilib və qarşıda duran vəzifələr müzakirə olunub.

Çıxış edən YAP Mərkəzi Seçki Qərargahının Səbail rayon şöbəsinin partiyanın və rayon təşkilatının sədri, professor Şəmsəddin Hacıyev son illər, xüsusilə 2018-ci ildən etibarən Azərbaycanın siyasi, iqtisadi, sosial, mədəni həyatında baş verən köklü dəyişikliklər haqqında geniş məlumat verdi.



Ş.Hacıyev diqqətə çatdırdı ki, VI çağırış Milli Məclisə seçkilər üçün 29 saylı Səbail seçki dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Aytən Hüseynovanın Səbail rayonu ərazisində təbliğat-təşviqat kampaniyası uğurla davam edir. YAP namizədi seçicilərlə əsasən sakinlərin sıx yaşadığı ərazilərdə, Bayılda, Bibiheybət və Badamdar qəsəbələrində, məhəllələrdə görüşür, evlərində qonaq olur, şəhid ailələrini ziyarət edir. Səbail rayonunda seçkilərin hər zaman olduğu kimi, tam demokratik və şəffaf şəraitdə keçirilməsi üçün zəruri



hazırlıq işlərinin tamamlandığını qeyd edən Ş.Hacıyev bildirdi ki, rayon ərazisində əksər məntəqələrdə quraşdırılmış veb-kameralar vasitəsilə seçki prosesi gün ərzində əvvəldən axıra kimi izləniləcəkdir. Sədr bu seçkilərdə də Səbail rayonunda yüksək seçici fəallığının qeydə alınacağına əminliyini ifadə edərək YAP namizədinə uğurlar arzuladı.

İşgüzar şəraitdə davam edən toplantıda qarşıda duran vəzifələr müzakirə olundu, ərazi ilk partiya təşkilatları sədrlərinə müvafiq tapşırıqlar verildi və təşkilat sədrlərini maraqlandıran suallar cavablandırıldı.

**Mənsumə Babayeva,**
***“İki sahil”***

# Kamal Cəfərov mədəniyyət işçiləri ilə bir arada





Yeni Azərbaycan Partiyası tərəfindən 63 saylı Sabirabad birinci seçki dairəsi üzrə deputatlığa namizəd Kamal Cəfərovun fevralın 6-da rayonun Mədəniyyət Sarayında mədəniyyət işçiləri ilə görüşü keçirilib.

Deputatlığa namizəd Kamal Cəfərov görüşdə çıxış edərək bildirib ki, ölkə vətəndaşlarının YAP sıralarına qoşulmalarının, öz siyasi talelərini bu partiya ilə bağlamalarının ciddi əsasları var: “Partiyamızın sıralarına xüsusilə intellektli, bilik və bacarıqlı, müxtəlif sahələrdə nailiyyətlər qazanmış insanlar, o cümlədən gənclərin qoşulduğunu nəzərə alsaq, bu əsasların hansı amillərlə bağlı olduğunu əminliklə söyləmək olar. Bu o deməkdir ki, YAP gənclərə öz bilik və bacarıqlarını nümayiş etdirmək üçün bütün şəraiti yaradıb və gənclərimiz bu partiyanın vasitəsilə özlərini cəmiyyətə təqdim edə bilirlər. Eyni zamanda, ölkəmizin aparıcı qüvvəsi olan mədəniyyət işçiləri də öz sənətləri ilə intellektual-vətənpərvər insanlar yetişdirirlər.”

Namizəd çıxışında öz seçki platformasından danışıb. Bildirib ki, çox böyük seçki təcrübəsi olan, cəmiyyətin bütün sosial təbəqələrini əhatə edən Yeni Azərbaycan Partiyasının parlament seçkilərində yüksək səviyyədə iştirakı siyasi zərurət olmaqla yanaşı, nəhəng elektorata malik olan təşkilat üçün sosial sifarişdir: “İnanıram ki, siz seçicilər YAP-ın namizədlərinə dəstək verməklə ölkəmizdə aparılan islahatların davamına dəstək vermiş olacaqsınız.”

Görüşdə iştirak edən seçicilər bildiriblər ki, onlar YAP-ın namizədlərinə yekdilliklə səs verəcəklər.

# Ramin Məmmədov Mürsəlli, Ulucalı, Ulduz və Şıxlar kəndlərində seçicilərlə görüşüb

YAP-ın 64 saylı Sabirabad ikinci seçki dairəsi üzrə deputatlığa namizədi Ramin Məmmədov rayonun Mürsəlli, Ulucalı, Ulduz və Şıxlar kəndlərində seçicilərlə görüşlər keçirib.

Görüşləri YAP Sabirabad rayon təşkilatının sədri Məleykə Ağayeva açaraq bildirib ki, bu gün ölkədə geniş və çoxşaxəli islahatlar proqramı Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Bu siyasət xalqın mütləq əksəriyyəti tərəfindən birmənalı şəkildə müdafiə olunur. Ona görə də hər seçkidə YAP-ın namizədlərinə etimad həmişə yüksək olub.











Namizəd Ramin Məmmədov görüşlərdəki çıxışlarında bildirib ki, Prezident İlham Əliyevin islahatlar təşəbbüsündə parlamentin fəaliyyətinin daha da təkmilləşdirilməsi ön sıradadır. Bu mənada biz inanırıq ki, keyfiyyətcə yeni parlament formalaşacaq.

Deputatlığa namizəd ölkəmizdəki sosial-iqtisadi inkişaf barədə danışaraq vurğulayıb ki, möhtərəm Prezidentimiz tərəfindən həyata keçirilən sosial-iqtisadi islahatlar əhali tərəfindən rəğbətlə qarşılanır: “Bir daha bildirmək istəyirəm ki, Azərbaycan dünya miqyasında müasir, öz tarixinə, ənənələrinə sadiq, sürətlə inkişaf edən ölkədir. Cənab Prezidentin siyasəti hər bir vətəndaş tərəfindən birmənalı olaraq müsbət qiymətləndirilir. Çünki hamı yaxşı bilir ki, bu siyasətin mərkəzində xalqın yüksək həyat tərzi, rifahı dayanır.”

Görüşlərdə seçicilər birmənalı olaraq bildirdilər ki, 9 fevral tarixində keçiriləcək seçkilərdə YAP-ın namizədinə səs verəcəklər.

**Elçin Zaman,**
***“İki sahil”***